Fətiyev Üzeyir Cəmil oğlu
Sərbəst auditor
Audit lisenziyası № 072766

## Müstəqil auditor rəyi

### Maliyyə vəziyyəti barədə hesabat

Mən İpək Yolu Sığorta ASC-nin (əvvəlki adı Azal Sığorta ASC) (bundan sonra "Cəmiyyət") 31 dekabr 2012-ci il tarixinə olan balansı, həmin tarixdə başa çatmış il üzrə mənfəət və zərər hesabatı, səhmdar kapitalında dəyişikliklər və pul vəsaitinin hərəkəti haqqında hesabatlardan, eləcədə əsas mühasibat prinsiplərinin və digər izahedici qeydlərin icmalından ibarət maliyyə hesabatlarının audit yoxlamasını apardım.

### Maliyyə hesabatlarının hazırlanmasına rəhbərliyin məsuliyyəti

Rəhbərlik bu maliyyə hesabatlarının maliyyə hesabatlarına dair qeydlərdə göstərildiyi kimi Ümumi Mühasibat Uçotu Standartlarına uyğun hazırlanmasına, obyektiv şəkildə təqdim edilməsinə, eləcə də hesabatlarının saxtakarlıq və ya səhvlərdən irəli gələn əhəmiyyətli təhriflər olmadan tərtib edilməsi üçün zəruri hesab etdiyi daxili nəzarət sisteminə görə məsuliyyət daşıyır.

### Auditorun məsuliyyəti

Mənim məsuliyyətim apardığım audit yoxlamasına əsasən bu maliyyə hesabatlarına dair rəy verməkdən ibarətdir. Mən audit yoxlamasını Beynəlxalq Audit Standartları əsasında aparmışam. Standartların tələbinə görə, mən etik tələblərə riayət etməli və auditi maliyyə hesabatlarında əhəmiyyətli təhriflərin olmadığına dair qənaətbəxş əminlik yaranacaq şəkildə planlaşdırmalı və aparmalıyam.

Audit yoxlamasına maliyyə hesabatlarındakı məbləğlər və açıqlamalara dair audit sübutu əldə etmək üçün prosedurların yerinə yetirilməsi daxildir. Seçilmiş prosedurlar mənim mülahizələrimdən, eləcə də saxtakarlıq və ya səhvlər nəticəsində maliyyə hesabatlarının əhəmiyyətli dərəcədə təhrif edilməsi risklərinin qiymətləndirilməsindən asılıdır.

Həmin riskləri qiymətləndirərkən, mən müəssisəsinin daxili nəzarət sisteminin səmərəliyinə dair rəy bildirmək üçün deyil, şəraitə görə müvafiq audit prosedurlarının işlənib hazırlanması məqsədilə müəssisə tərəfindən maliyyə hesabatlarının hazırlanması və obyektiv şəkildə təqdim edilməsi üçün müvafiq daxili nəzarət sistemini nəzərdən keçirmişəm.

Bundan əlavə, mövcud mühasibat siyasətinin uyğunluğunu və rəhbərliyinin mühasibat təxminlərinin əsaslandırılmasını qiymətləndirmiş, eləcə də maliyyə hesabatlarının ümumi təqdimatını dəyərləndirmişəm.

Mən hesab edirəm ki, audit rəyimi bildirmək üçün kifayət qədər və müvafiq audit sübutları əldə etmişəm.

### Rəy

Mənim rəyimcə, maliyyə hesabatları bütün əhəmiyyətli aspektlər baxımından cəmiyyətin 31 dekabr 2012-ci il tarixinə maliyyə vəziyyətini və həmin tarixdə başa çatan il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini maliyyə hesabatlarına dair qeydlərdə göstərildiyi kimi Ümumi Mühasibat Uçotu Prinsiplərinə uyğun olaraq düzgün əks etdirir.

Azərbaycan Respublikası • Bakı şəhəri • Fiziki şəxs
Fətiyev Üzeyir Cəmil oğlu
VÖEN 8301000772

**Fətiyev Üzeyir**
**Audit lisenziyası № 072766**
**Bakı, Azərbaycan Respublikası**
**28 mart 2013**

ABBYY PDF Transformer 2.0 Click here to buy www.ABBYY.com